**Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 13 yanvar 2017-ci il tarixli 01 №-li Qərarı ilə təsdiq edilmişdir.**

**4.15-ci bəndinə** aşağıdakı redaksiyada yeni abzas əlavə edilsin:

"Ərazidən istifadənin intensivliyi yaşayış tikintisinin sıxlığı və ərazinin tikinti faizi ilə səciyyələnir. Yaşayış zonaları ərazilərinin tikinti sıxlığı və tikinti faizi ərazinin şəhərsalma baxımından əhəmiyyəti, ətraf mühitin vəziyyəti, şəhərsalma şəraitinin digər xüsusiyyətləri nəzərə alınmaqla şəhərsalma reqlamentinə uyğun qəbul edilməlidir. Yaşayış tikintisinin sıxlığı, ərazinin tikinti faizi və orta (hesablama) mərtəbəliyinin göstəriciləri əlavə 13-də göstərilmişdir".

Normativ sənədə aşağıdakı redaksiyada **Əlavə 13** daxil edilsin:

Əlavə 13

*(tövsiyə olunan)*

Yaşayış tikintisinin sıxlığı, ərazinin tikinti faizi və orta (hesablama) mərtəbəliyinin göstəriciləri

| Ərazinin tikinti faizi | Yaşayış tikintisinin sıxlığı | | | |
|---|---|---|---|---|
| | 4.1-10.0 min $m^2$/ha | 10.0-15.0 min $m^2$/ha | 15.0-20.0 min $m^2$/ha | 20.1-25.0 min $m^2$/ha |
| 10% | 10 mərtəbəyədək | 11-15 mərtəbə | 16-20 mərtəbə | 21-25 mərtəbə |
| 15% | 3-7 mərtəbə | 7-10 mərtəbə | 10-14 mərtəbə | 14-17 mərtəbə |
| 20% | 2-5 mərtəbə | 5-8 mərtəbə | 8-10 mərtəbə | 10-13 mərtəbə |
| 25% | 2-4 mərtəbə | 4-6 mərtəbə | 6-8 mərtəbə | 8-10 mərtəbə |
| 30% | 1-4 mərtəbə | 3-5 mərtəbə | 5-7 mərtəbə | 7-8 mərtəbə |
| 40% | 1-3 mərtəbə | 2-4 mərtəbə | 4-5 mərtəbə | 5-7 mərtəbə |

*Qeyd:*

*1. Yaşayış tikintisinin sıxlığı – yaşayış binasının yerüstü mərtəbələlərinin ümumi sahəsinin planlaşdırılan ərazinin sahəsinə olan nisbətidir* (min $m^2$/ha);

*2. Yaşayış tikintisi ərazinin tikinti faizi – yaşayış tikintisi sahəsinin planlaşdırılan ərazinin ümumi sahəsinə olan nisbətidir (%);*

*3. Xarici divarlar qabaritlərində yaşayış tikintisinin (fondunun) ümumi sahəsindən yaşayış tikintisinin mərtəbələr üzrə ümumi sahəsinə keçid əmsalı iriləşdirilmiş hesablamalar üçün 0,75; dəqiq hesablamalar üçün isə yaşayış tikintisinin konkret tipindən asılı olaraq (0,6-0,86) qəbul edilməlidir.*